https://doi.org/10.59849/2410-5600.2025.2.112

UOT: 94

**Nəsibə Murtuzayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç. 26*
*e-mail: murtuzayevanesibe@gmail.com*

# "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"NİN MÜSTƏQİL AZƏRBAYCAN TARİXİNDƏKİ İZİ

**Xülasə**

Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasını, hüquqi, dünyəvi dövlət quruculuğunu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığının təmin edilməsini tənzimləyir. Azərbaycanda insan hüquq və azadlıqlarının qorunmasında, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsində dövlət siyasətinin təmin olunmasını milli Konstitusiyamız nizamlayır. Azərbaycan Respublikasının Konstitusiyasında əksini tapan müddəaların böyük əksəriyyəti insan hüquqlarının qorunmasına həsr olunmuşdur. Konstitusiyamızın təsis olunması insan hüquqlarının qorunmasının prioritetliyini təsdiqləyir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan etməsi onun ərazi bütövlüyümüzə və suverenliyimizə diqqət və qayğısının göstəricisidir.

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Konstitusiya, Heydər Əliyev, İlham Əliyev, 2025-ci il, suverenlik, dövlət*

## Giriş

*Azərbaycan əsrlər boyu müstəqil, suveren, qalib dövlət kimi tanınmaqdadır. Dövlətimiz və xalqımız sahib olduğu bu suverenliyə qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına nail olmuşdur. Azərbaycan xalqının milli sərvəti sayılan ərazi bütövlüyümüz, suverenliyimiz əbədidir. Xalqımızın böyük qürur və fəxarət hissi ilə qəbul etdiyi Konstitusiya Prezident, Müzəffər Ali Baş Komandan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının çiçəklənməsinə xidmət etməkdədir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi çox mühüm tarixi əhəmiyyətə malikdir. Azərbaycanda 1995-ci ildə Milli Konstitusiyamızın qəbul edilməsi nəticəsində onun hüquqi dövlət kimi mövqeyi olduqca möhkəmlənmişdir. Müasir müstəqil Azərbaycanın uğurlarında, regionda və dünyada söz sahibi olmasında, sözünün imzası qədər əhəmiyyətli olmasında, böyük çətinliklərin və faciələrin öhtəsindən gəlməkdə xalqımızın milli mənliyinin rolu danılmazdır. Müstəqilliyimizin qorunub saxlanmasında və inkişafında Azərbaycan xalqı daim bir olmağı bacarmışdır. Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında möhkəmlənib 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyasını qəbul etdi. 1995-ci il noyabrın 12-də qəbul olunan Konstitusiya genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil edirdi.*

Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərdə bərqərar olunduqdan sonra Azərbaycan dünyada yeni reallıqların müəllifi kimi tanınır. Azərbaycan xalqı müstəqil və suveren dövlətə sahib xalq kimi milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş Azərbaycanı yüzillər boyu var etməkdədir. Azərbaycan xalqının ən böyük arzusu tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə,

məhrumiyyətlərə baxmayaraq, azərbaycanlıların milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamaq olmuşdur. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əbədi olduğunu bildirən Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etməkdədir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu siyasətin layiqli davamçısı kimi Konstitusiyamızın dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığının təmin edilməsindəki rolunu təmin etməkdədir. Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması Azərbaycan Respublikasının suveren hüquqlarının təmin edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən biridir. Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə keçərlidir. Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilməsi nəticəsində dövlətimiz qarşıda duran strateji hədəflərə doğru inamla irəliləməyə nail olmuşdur. 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə olmuşdur. 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçilik ənənələrinin gücləndirilməsi, hüquqi dövlət quruculuğunun təkmilləşdirilməsi, Azərbaycan Respublikasının müasir dövlətçiliyinin əsasını təşkil edən konstitusiya dəyərlərinin qorunması, inkişaf etdirilməsi, təbliği, suverenliyin qorunması və möhkəmləndirilməsi istiqamətində atılan əhəmiyyətli addımlardan biridir. Azərbaycanın müasir dövlət quruculuğunda Konstitusiya və suverenlik anlayışları ayrılmaz dəyərlərdir. Azərbaycan Respublikasının Konstitusiyası dövlətin əsas hüquqi sənədi olmaqla hüquqi dövlətin əsasını təşkil edərək, vətəndaşların hüquq və azadlıqlarını təsbit edir. Suverenlik xalqın öz müqəddəratını təyinetmə hüququ, dövlətin öz ərazisi daxilində ali hakimiyyətə malik olması, beynəlxalq arenada bərabərhüquqlu subyekt kimi çıxışını və müstəqil qərarlar qəbul etməsi deməkdir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması nəticəsində Azərbaycan Respublikasının milli kimliyi daha da gücləndi. Azərbaycanın müstəqillik tarixində əldə etdiyi uğurların və gələcək perspektivlərin inkişafı üçün unikal imkanlar yarandı.

Professor Ziyafət Əsgərov "Azərbaycan konstitusion və suveren dövlətdir" məqaləsində Ulu Öndər Heydər Əliyevin Konstitusiya layihəsinin hazırlanmasındakı xidmətlərini analiz etmişdir. "1995-ci il noyabrın 12-də Azərbaycan xalqı ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbuluna səs verdi. Tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunun qəbulu demokratik, dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu əsasında dövlətimizin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində ilk mərhələ oldu. Odur ki, müstəqil Azərbaycanın ilk Konstitusiyanın qəbulu müasir tariximizin ən mühüm hadisələrindən biri olmaqla Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır. Azərbaycanda belə bir yüksək səviyyəli konstitusiyanın qəbul olunması təsadüfi hal olmayıb, çoxəsrlik dövlətçilik ənənələrinin, xalqımızın keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsi idi. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir şanlı səhifə yazıldı" [6, s. 6].

Azərbaycan xalqı tarixboyu müstəqilliyi və suverenliyi uğrunda böyük mübarizələr aparmışdır. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət mövcud olmasına baxmayaraq, xalqımızın dövlətçilik iradəsini özündə cəm etmişdir. Bütün dünyaya Azərbaycan xalqının öz müqəddəratını təyin etməyə qadir olduğunu sübut etmişdir. 1918-ci ildə əldə olunan müstəqillik və suverenlik cəmi 23 ay davam etməsinə baxmayaraq, Azərbaycanın müstəqilliyinin qorunmasında və suveren dövlət kimi formalaşmasında həlledici rol oynamışdır. Azərbaycanın müstəqilliyinin və suverenliyinin beynəlxalq səviyyədə tanınması onun etibarını gücləndirdi, beynəlxalq əlaqələrini möhkəmləndirdi, ölkədəki siyasi sabitliyi təmin etdi. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ilə dövlət quruluşunun təməl prinsiplərini müəyyənləşdirildi. Cəmiyyətin yaşayışı sahəsində dövlət siyasətinin ümumi istiqamətləri təsbit edildi. Müstəqillik, Konstitusiya və suverenlik xalqın və dövlətin həyatında xüsusi rola malikdir. Azərbaycanın Konstitusiyası xalqın iradəsini, milli maraqlarını əks etdirir və müasir beynəlxalq insan hüquqlarının tələblərinə cavab verir. Azərbaycan

Respublikasının Konstitusiyası ölkədə mövcud olan ictimai-siyasi qeyri-sabitlik, qanunsuz silahlı dəstələrin özbaşınalığı, hakimiyyət uğrunda zorakılığa söykənən mübarizə, vahid siyasi iradənin olmaması, anarxiyanı tamamilə qəbul etmir. Konstitusiyanın qəbulu Azərbaycan vətəndaşlarının birbaşa iradəsi ilə olmuşdur. Azərbaycan xalqının və dövlətinin tarixində ilk milli Konstitusiyanın qəbul edilməsində Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi hakimiyyətə qayıtdıqdan sonra Konstitusiyanın qəbul edilməsi üçün çox böyük işlər görmüşdür. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Azərbaycan Respublikasının Konstitusiyasının 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı tərəfindən təsdiq olunmasına nail olmuşdur. Bu Konstitusiya Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi məsələləri özündə ehtiva edirdi. Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyi onun sahib ola biləcəyi ən qiymətli sərvətdir. Hər bir millətin müstəqillik salnaməsi və suverenlik yolu məhz onun malik olduğu dövlətçilik ənənələrindən, azadlıq düşüncəsindən, milli-mənəvi irsindən, tarixi keçmişindən və intellektual potensialından asılıdır.

Zahid Rza "Azərbaycan "Konstitusiya və Suverenlik İli"ni tarixi uğurlarla qarşılayır" adlı məqaləsində Konstitusiya və suverenliyi çox yüksək dəyərləndirmişdir. "1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır." [5, s. 14].

Azərbaycanda qanunların aliliyini təmin edən Konstitusiya ümumbəşəri dəyərlərə sadiq qalaraq xalqımızın hər bir nümayəndəsinin bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərə bilməsini təmin edir. Milli Konstitusiyanın qəbul edilməsi ilə dövlət idarəçiliyinin prinsipləri, vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi kimi məsələlər qanunun aliliyi ilə təsdiq olunmuşdur. Konstitusiya və suverenlik anlayışı Azərbaycanın daxili və xarici siyasətdə müstəqil qərarlar qəbul etməsini təmin edən hüquqi çərçivədir. Belə ki, cəmiyyət inkişaf etdikcə meydana çıxan yeni ictimai münasibətlərin hüquqi tənzimi məqsədilə, bir qayda olaraq, qanunlar qəbul edilərək, Konstitusiyaya lazimi əlavələr və dəyişikliklər edilməsinə ehtiyac yaranma halları ola bilir. Azərbaycanda 2002-ci il, 2009-cu il və 2016-cı ildə keçirilmiş referendumlar vasitəsilə Konstitusiya daha da təkmilləşdirilərək ona əlavə və dəyişikliklər edilmişdir. Azərbaycanda qanunların aliliyini təmin edən Konstitusiya Azərbaycan xalqının insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsinə, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, hüquqi islahatların daha effektiv həyata keçirilməsinə xidmət etmişdir.

Səməd Şahtaxtinski ""Konstitusiya və Suverenlik İli": hüquqi, tarixi və müasir perspektivlər" məqaləsində Konstitusiya və suverenlik anlayışlarının Azərbaycanın müasir dövlət quruculuğu haqqında söyləyir ki: "Konstitusiya və suverenlik anlayışları Azərbaycanın müasir dövlət quruculuğunda ayrılmaz dəyərlər kimi çıxış edir. Konstitusiya dövlətin əsas hüquqi sənədi olmaqla hüquqi dövlətin əsasını təşkil edir, vətəndaşların hüquq və azadlıqlarını təsbit edir, suverenlik isə xalqın öz müqəddəratını təyinetmə hüququnu, dövlətin öz ərazisi daxilində ali hakimiyyətə malik olmasını, beynəlxalq arenada bərabərhüquqlu subyekt kimi çıxışını və müstəqil qərarlar qəbul etməsini təmin edir. Əminliklə deyə bilərik ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, bu iki mühüm dəyərin əhəmiyyətini vurğulamaqla yanaşı, Azərbaycan Respublikasının gələcək inkişafına və milli kimliyinin daha da gücləndirilməsinə mühüm töhfə verəcək, ölkəmizin müstəqillik tarixində əldə etdiyi uğurların və gələcək perspektivlərin təhlili üçün unikal imkan yaradacaq. Müstəqillik və suverenlik millətlərin sahib ola biləcəyi ən qiymətli sərvətdir. Hər bir

millətin müstəqillik salnaməsi və suverenlik yolu məhz onun malik olduğu dövlətçilik ənənələrindən, azadlıq düşüncəsindən, milli-mənəvi irsindən, tarixi keçmişindən və intellektual potensialından asılı olaraq əldə edilir və yaşadılır. Azərbaycan xalqı tarixboyu müstəqillik uğrunda və öz suverenliyini qorumaq üçün müxtəlif mübarizələr aparmışdır" [4, s.10].

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi təxribatlara və növbəti hərbi təcavüzünə cavab olaraq torpaqlarımızın işğaldan azad olunması məqsədi ilə başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun rəşadəti və Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan Respublikasının Konstitusiya quruluşu tamamlandı. Belə ki, bu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədləri təmin olundu. Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi tam bərpa edilərək, Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyi təmin olundu. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi nəticəsində Azərbaycanın hüquqi dövlət quruculuğunda və milli suverenliyinin möhkəmləndirilməsində mühüm mərhələyə keçirildi. Ölkəmizdə əhalinin "Konstitusiya və Suverenlik İli" çərçivəsində dövlətçilik və suverenlik sahəsində maarifləndirilməsi artırılmışdır. Konstitusiya dövlət idarəetməsini təkmilləşdirəcək, gənc nəsillərin vətənpərvərlik ruhunu gücləndirəcək, onlarda vətəndaş şüurunu artıracaq, Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirəcəkdir. Azərbaycan Respublikasının Konstitusiyası müstəqilliyimizin hüquqi təminatı, dövlət quruculuğunun əsas hüquqi bazasıdır. Azərbaycanın suverenliyi dövlətimizin gücünün rəmzidir və qəhrəman Azərbaycan Ordusunun qanı, canı bahasına əldə edilmişdir. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi əbədidir.

## Nəticə

*Azərbaycanda qanunların aliliyini təmin edən Konstitusiya ümumbəşəri dəyərlərə sadiq qalaraq xalqımızın hər bir nümayəndəsinin bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərə bilməsini təmin edir. 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçilik ənənələrinin gücləndirilməsi, hüquqi dövlət quruculuğunun təkmilləşdirilməsi, Azərbaycan Respublikasının müasir dövlətçiliyinin əsasını təşkil edən konstitusiya dəyərlərinin qorunması, inkişaf etdirilməsi, təbliği, suverenliyin qorunması və möhkəmləndirilməsi istiqamətində atılan əhəmiyyətli addımlardan biridir. Azərbaycanın müasir dövlət quruculuğunda Konstitusiya və suverenlik anlayışları ayrılmaz dəyərlərdir. Azərbaycan Respublikasının Konstitusiyası dövlətin əsas hüquqi sənədi olmaqla hüquqi dövlətin əsasını təşkil edərək, vətəndaşların hüquq və azadlıqlarını təsbit edir.*

## Ədəbiyyat siyahısı:

1. Əliyev, Heydər Əlirza oğlu. Azərbaycan xalqının Ümummilli Lideri 1923-2003.Müstəqilliyimiz əbədidir.1-ci kitab.- Bakı.Azərnəşr.- 2023. - S.408.
2. Konstitusiya və Suverenlik İli: metodik vəsait:/ tərt. A.Məmmədova; - Bakı, 2025.- S.40.
3. Rəhmanzadə, Fazil Şamil oğlu. Qarabağ Azərbaycandır. Bakı: Elm və təhsil, 2022.- S.464.
4. Səməd Şahtaxtinski // Səməd Şahtaxtinski ""Konstitusiya və Suverenlik İli": hüquqi, tarixi və müasir perspektivlər // Şərq qapısı.- 2025.- 12 may.- S.10.
5. Zahid Rza // Azərbaycan "Konstitusiya və Suverenlik İli"ni tarixi uğurlarla qarşılayır // İki Sahil.-2024.-30 dekabr.- S.14.
6. Ziyafət Əsgərov // Azərbaycan konstitusion və suveren dövlətdir // Azərbaycan.- 2025.- 4 fevral (No 24).- S.6.

**Nasiba Murtuzayeva**

# The trace of the "Year of Constitution and Sovereignty" in the history of independent Azerbaijan

***Summary***

The Constitution of the Republic of Azerbaijan regulates the protection of the independence, sovereignty and territorial integrity of our state, the legal, secular state-building, the provision of a decent standard of living for our citizens, and cooperation with countries of the world in a friendly and peaceful environment. Our national Constitution regulates the provision of state policy in the protection of human rights and freedoms in Azerbaijan, the definition of new protection mechanisms. The vast majority of provisions reflected in the Constitution of the Republic of Azerbaijan are dedicated to the protection of human rights. The establishment of our Constitution confirms the priority of the protection of human rights. The declaration of 2025 as the "Year of Constitution and Sovereignty" by the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev is an indication of his attention and care for our territorial integrity and sovereignty.

***Keywords:*** *Republic of Azerbaijan, Constitution, Heydar Aliyev, Ilham Aliyev, 2025, sovereignty, state*

*Fəlsəfə elmləri doktoru, dosent* ***Zəkiyyə Əbilova***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*